# Məzun günü



Rayonunmuzun ümumtəhsil məktəblərində "Məzun günü"nə həsr edilmiş tədbirlər keçirilmişdir. Bu il XI-ci sinfi bitirən 1214 nəfər məzun üçün məktəb həyatının son, müstəqil həyatın ilk zəngi çalınıb. Bayram tədbirlərində rayon təhsil sektorunun nümayəndələri, müəllimlər, valideynlər, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə əlilləri və veteranları iştirak etmişlər. Tədbirlərdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı əvəzsiz xidmətlərindən, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən təhsil sahəsində həyata keçirilən uğurlu siyasətdən söz açmış, məzunları və valideynləri "Məzun günü" münasibəti ilə təbrik edərək, onlara uğurlar arzulamışlar.

# Tibb işçilərinin peşə bayramı

17 iyun - tibb işçilərinin peşə bayramı ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndələri və Qəbələ RMX PHŞ-nin kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Azərbaycan xalqının Ümumilli Lideri Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək, ulu öndərə öz ehtiramlarını bildirmişlər.



# Qanunsuz tikinti işlərinin aparılmasının qarşısı alınıb

Qəbələ Rayon İcra Hakimiyyətinin, rayon polis şöbəsinin, Fövqəladə Hallar Nazirliyinin Şimal - Qərb Regional Mərkəzinin və digər aidiyyəti qurumların əməkdaşları tərəfindən rayon ərazisində özbaşına aparılan tikililərin və torpaq zəbtlərinin qarşısının alınması məqsədilə mütəmadi olaraq monitorinqlər keçirilir. Keçirilən növbəti monitorinq zamanı Zarağan kəndi ərazisində fiziki şəxs Əmrahov Habil Əli oğlu tərəfindən qanunsuz tikinti işlərinin aparılması faktı aşkar edilmiş, qarşısı alınaraq ərazi boşaldılmışdır. Bir daha vətəndaşların diqqətinə çatdırılır ki, mülkiyyətində olmayan torpaq sahələrinin zəbt olunaraq hasarlanması, özbaşına tikinti işləri aparılaraq müxtəlif məqsədlər üçün istifadəsi yolverilməzdir.

# Barama tədarükü



Qəbələ rayonunda bu ilki mövsüm ərzində yaş barama yetişdirilməsi üçün 60 kümçü ilə müqavilə bağlanaraq, onlara 150 qutu və ya 2.85 kiloqram ipəkqurdu paylanılıb. Artıq bir neçə gündür ki, istehsalçılar tərəfindən hazır məhsulun təhvil verilməsinə başlanılıb. Qəbələli kümçülər bu günədək qəbul məntəqəsinə 781 kq yaş barama təhvil veriblər. Hal-hazırda barama tədarükü davam edir.




# QƏBƏLƏ

qəzetinə

**2025-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226** (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**


# Gözəlliyin təcəssümü

Lavanda çoxillik ətirli ədviyyat bitkisidir. Deyilənə görə onun vətəni Aralıq dənizi sahilləridir. Lavanda bitkilər aləminin dalamazçiçəklilər fəsiləsinə aiddir. Bitki çox qədim zamanlardan mövcud olmuşdur. Qədim Misirdə mumiyalaşdırma zamanı istifadə edilən maddənin əsas komponentlərindən biri olub. İstifadə olunmasına görə məlum olmuşdur ki, lavanda öz ətrini 3 min il saxlaya bilmişdir. 1922-ci ildə Misir fironu Eutan Xamonun mumiyasından ətirli lavandanın qalıqlarının tapılması buna əyani sübutdur. Qədim zamanlar bu bitkidən suyu ətirləndirmək üçün istifadə edirdilər. Latınca "lavane" yuyunmaq deməkdir; lavandanın adı da elə həmin sözdən götürülmüşdür.

Lavandanın qoxusu sinir sistemini sakitləşdirir, stress və narahatlıq hissini azaldır.

Fransada diuretik, Avstraliyada sakitləşdirici, Bolqarıstanda bitkinin çiçəklərindən sinir və həzm sistemi xəstəliklərində, Polşada isə dəmləməsindən orta qulağın iltihabı zamanı istifadə olunur.

Lavanda bütün dünyada populyar bitkidir. Onun çiçəkləri, yarpağı, yağı, balı, sabunu, suyu, bir sözlə bütünlüklə həm şəfa, həm də qazanc mənbəyidir.



Lavandanı həm ədviyyat kimi, həm də efir yağlarının alınması üçün yetişdirirdilər. Distillə yolu ilə alınan efir yağından tibb, kosmetologiya və ətriyyat sahəsində istifadə edilir. Lavanda ətriyyat bitkisi kimi yeməklərin hazırlanmasında da istifadə olunur. Onun ətrini daha da gücləndirmək üçün şüyüd və adaçayı ilə birlikdə istifadə olunur.

Lavanda bitkisi sağlamlıq üçün də ta qədimdən əhəmiyyətli hesab olunmuşdur. Onu qurudub başqa ətirli bitkilərlə birgə kisələrə yığıb, quru yerdə saxlayırlar. Ətirli kisəciklərdən isə ağrılı nahiyələrə qoyulur, miqren xəstəliyi zamanı istifadə olunurdu.

Revmatizm, taxikardiya, qrip xəstəliyinə müsbət təsir göstərir. Həmçinin o, orqanizmin infeksion xəstəliklərə qarşı müqavimətini artırır, iltihab əleyhinə təsirinə görə sistit, uretrit və vaginitlərin müalicəsində istifadə edilir, şlakları orqanizmdən xilas edir.

Onu da qeyd edək ki, sübut olunmuşdur ki, lavanda parazit cücüləri, milçəkləri və s. qovmaq üçün şkaflara və ipək parçalar arasına səpilirdi. Bir sözlə, lavanda tərkibi efir yağları ilə zəngin olduğuna görə havada müxtəlif virusları məhv edir.

Lavanda kolu çöl bitkisi olduğu üçün su tələb etməyən, rahat yetişən bitkidir. Bir dəfə əkildikdə 20 il istifadəsi mümkündür.

Tarixi məkan olan Qəbələ ta qədimdən ölkədaxili və xarici ölkələrdən gələn qonaqları ilə müstəsna yer tutmuşdur. Turizmin inkişafı sahəsində Qəbələdə mühüm işlər görülmüş və görülməkdədir.

Bu məkanda Qəbələ lavanda bağının salınması turizmin inkişafına müsbət təsir göstərmişdir.

Azərbaycana gələn turistlər Qəbələnin şimal-şərqində, Qafqaz dağlarının ətəyində yerləşən "Essenso" plantasiyasına baş çəkərək, bənövşəyi mənzərələrə heyran qalır, sehrli bir aləmə "düşmələrinin" xoş anlarını yaşayırlar.

2018 - ci ildən Qəbələnin hava limanına yaxın, Çuxur Qəbələ və Şamılı kəndləri arasında 30 hektardan çox sahədə intensiv lavanda əkini aparılır. Elə həmin ildən bu sahə ziyarətçilər üçün ən sevimli məkan sayılır.

"THE BEST CHOICE - MMC" şirkətinin direktoru Elbrus Məmmədovdur. Onun fikrincə Lavanda bağları yaxın gələcəkdə təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində belə ən gözəl məkana çevriləcək və dünya turistlərinin diqqətini çəkəcəkdir.

Qəbələ rayonunda turizmin inkişafında Lavanda bağlarının məxsusi yeri vardır.

**Şəhla XƏLİLQIZI.**

# İTMİŞDİR

Qəbələ şəhər sakini **Rzayev İsmayıl Pərviz oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Zalam kənd sakini **Qazıyev Rəşad Hüseynqulu oğluna** məxsus minik avtomobilinin texniki qeydiyyat **Şəhadətnaməsi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon sakini **Seyidzadə İlqar Nizami oğluna** məxsus minik avtomobilinin texniki **qeydiyyat Şəhadətnaməsi və sürücülük vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.


Redaktor Azad Məmmədov.

*TƏSİSÇİ:* Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 204-19-14.
Ümumi: (024) 204-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1050*